# Kitablara bağlı ömür

**Bu günlərdə, aprel ayının 19-da Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdirdiyi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı "İsmayıl Şıxlı. Biblioqrafiya" kitabının təqdimat mərasimi keçirildi. Vəsaitin tərtibçilərindən biri Azərbaycan Milli Kitabxanasının əməkdaşı Mətanət İbrahimovadır. Mətanət xanım bunun kimi neçə-neçə fundamental biblioqrafik göstəricinin tərtibçisi, həmtərtibçisidir. Onun tərtib etdiyi vəsaitlər öz professionallığı, elmiliyi və dəqiqliyi ilə həmişə fərqlənir. Elə sözü gedən "İsmayıl Şıxlı" biblioqrafik vəsaiti də o qəbildəndir. Biblioqrafiyada yazıçının həyat və yaradıcılığına aid zəngin materiallar toplanmışdır.**

Diqqətə çatdırmaq lazımdır ki, "İsmayıl Şıxlı: Biblioqrafiya" kitabı yazıçının gələcək nəsillərə daha yaxından tanınması baxımından olduqca əhəmiyyətlidir. Göstəricidə İsmayıl Şıxlının kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, redaktə etdiyi kitablar, rus və başqa dillərdə çap olunmuş əsərləri, habelə ədibin həyat və yaradıcılığını əks etdirən bütün nəşrlər verilmişdir. Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba sırası gözlənilmişdir. Biblioqrafiyada "İsmayıl Şıxlının əsərləri dünya kitabxanalarında" bölməsində toplanan materiallar ölməz sənətkarın irsinin bütün dünyada çox geniş yayılmasının əyani sübutudur. "Əlavələr" bölməsində verilən Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin fondunda mühafizə olunan arxiv materiallarının da əhatə olunması biblioqrafiyanın əhəmiyyətini daha da artırır.

Qeyd edək ki, bir müddət öncə Azərbaycan Milli Kitabxanasının nəşri olan "Səməd Mənsur" biblioqrafiyası da Mətanət xanım tərəfindən tərtib edilmişdir. İlk dəfə olaraq çap olunan biblioqrafiyanın yanvar ayının 31-də Əmircan qəsəbəsində yerləşən Mədəniyyət evində Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə görkəmli şair Səməd Mənsurun 140 illiyinə həsr olunmuş "Həpsi rəngdir" adlı ədəbi-bədii tədbirdə təqdimatı keçirilmişdir.

Mətanət Hüseyn qızı İbrahimova 1960-cı il may ayının 29-da Azərbaycanın dilbər guşəsi olan Naxçıvan MR-nın Şahbuz rayonunda qulluqçu ailəsində anadan olmuşdur. Hələ orta məktəbdə oxuyarkən kitaba, mütaliyəyə böyük həvəs göstərən Mətanət danışır ki, hətta Şahbuzun soyuq qış günlərində belə kitabxanaya gedər 5-6 kitab alıb evə dönərdim. Həmin kitabları iki günə oxuyub təhvil verəndə kitabxanaçı Gülçöhrə xanım "sən yenə gəldin", "nə tez oxudun bu kitabları" deyərmiş. Mütaliəyə, kitaba böyük həvəs göstərən Mətanət xanım heç özü də bilməzdi ki, illər ötəcək, o da kitabxanaçı olacaq və adı bu sahədə peşəkar kitabxanaçılar sırasında çəkiləcəkdir.

M.İbrahimova 1977-ci ildə Şahbuz rayon orta məktəbini bitirmiş,



elə həmin il sənədlərini Bakı Dövlət Universitetinin filologiya fakültəsinə vermiş, müsabiqədən keçə bilməmişdi. Rayona qayıdan Mətanət əmək fəaliyyətinə başlamış, 1978-ci ildə Şahbuz rayon Mərkəzi Kitabxanasının nəzdində Səyyar Avtokitabxananın müdir-kitabxanaçı işləyərək həyatının bundan sonrakı dövrünü kitabxana ilə bağlamışdır.

Mətanət xanımın kitabxanaçı olmasında babası, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Şahbuz rayon Mədəniyyət Şöbəsinin müdiri Bayram Qurbanovun böyük rolu olmuşdur. Bayram müəllim ixtisasca jurnalist olsa da ömrünün sonuna qədər həmin vəzifədə çalışmış və işinin öhdəsindən layiqincə gəlmişdir. 1979-cu ildə babasının məsləhəti ilə sənədlərini Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə verən Mətanət xanım universietə daxil olmuş və 1985-ci ildə oranı bitirmişdir. Bu təhsil ocağında peşəsinin sirlərinə yiyələnmiş və ali təhsilli kitabxanaçı kimi yetişmişdir. 1981-ci ildə ailə vəziyyəti ilə əlaqədar Bakı şəhərinə köçən M.İbrahimova taleyini M.F.Axundov adına Respublika Kitabxanası (indiki Azərbaycan Milli Kitabxanası) ilə bağlamışdır. 1984-cü ildən bu mədəniyyət ocağında, respublikanın baş kitabxanasında çalışmış, kollektivin və rəhbərliyin rəğbətini qazanmışdır. Əvvəlcə "Azərbaycan ədəbiyyatının arxivi" şöbəsində, 1989-cu ildən isə "Diyarşünaslıq biblioqrafik resursların yaradılması" şöbəsində səmərəli fəaliyyət göstərir. 1994-cü ildən isə həmin şöbədə "Azərbaycanşünaslıq məlumat bazasının yaradılması" bölməsinin müdiri kimi çalışır.

Artıq 35 ildir ki, bu kitabxananın əməkdaşıdır. İşlədiyi dövr ərzində sanballı biblioqrafik vəsaitlər tərtib etmiş, müxtəlif vəsaitlərin hazırlanması prosesində yaxından iştirak etmiş, 10-larla vəsaitin həmməllifi olmuşdur. Bunlardan "Heydər Əliyev", "Əziz Əliyev", "Qəzənfər Paşayev", "Səməd Vurğun", "Qara Qarayev", "Teymur Elçin", "M.P.Vaqif", "Mir Cəlal" və digər görkəmli şəxsiyyətlər haqqında biblioqrafiyaları misal göstərmək olar. Çoxşaxəli arayışlarla müraciət edən oxuculara effektli xidmət göstərmiş, onların sorğularına dəqiq və vaxtında cavab verməklə peşəkar biblioqraf kimi oxucuların da sevgisini və hörmətini qazanmağı bacarmışdır.

**Hələ qarşıda neçə-neçə maraqlı işlərə imza atacaq Mətanət xanıma bu zəhmətli peşə fəaliyyətində uğurlar arzu edir və gələcək işlərində müvəffəqiyyətlər diləyirik.**

**Bəybala Ələsgərov,**
**Tarix elmləri doktoru**

Ədalət, 2019 - 3 may - S.6